# ŞAHBAZOV YAVƏR ƏLİBALA OĞLU



1 noyabr 1973-cü ildə Xaçmaz rayonunun Qıraqlı kəndində anadan olmuşdur. 1991-ci ildə orta təhsilini Alekseyevka kəndində bitirmiş, həmin il Şamaxı Mədəni-Maarif Texnikumuna daxil olmuşdur. 1994-cü il 8 iyunda hərbi xidmətə çağırılmış, Milli Ordu sıralarında xidmət etməyə başlamışdı. 1995-ci il martın 13-də dövlət çevrilişinə cəhdin qarşısının alınmasında Yavər də iştirak edirdi. Martın 17-də qarşıdurma zamanı Şahbazov qiyamçıların atəşi altında qalan döyüş yoldaşlarını xilas etmək üçün xüsusi fədakarlıq göstərir, lakin, özü isə bu qarşıdurmada həlak olmuşdu. Alekseyevka kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Şahbazov Yavər Əlibala oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Alekseyevka kənd orta məktəbi 1996-cı ildən qəhrəmanın adını daşıyır. Məktəbin önündə və Xaçmaz şəhərində büstü qoyulmuşdur. 2003-cü ildə isə Alekseyevka kəndində qəhrəmanın xatirəsinə Şəhidlər Abidəsi ucaldılmışdır.